

# Xalqın iradəsi

# Növbədənkənar prezident seçkiləri gələcək uğurların açarı oldu

*Azərbaycanın müasir siyasi tarixində önəmli bir hadisə 2018-ci ildə qeydə alındı. İlk dəfə olaraq Yeni Azərbaycan Partiyası növbədənkənar prezident seçkilərinin keçirilməsi təşəbbüsü ilə çıxış etdi. Bu, təkcə bir siyasi addım deyildi - bu, xalq-iqtidar birliyinin sınaqdan keçdiyi, dövlət idarəçiliyində çevik və strateji qərarların önə çıxdığı bir məqam idi.*

Təqvim 5 fevralı göstərərkən Prezident İlham Əliyev mühüm bir sənədə - "Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında" Sərəncama imza atdı. Bu Sərəncamla ölkədə siyasi dinamizmin yeni mərhələsinə start verildi. Seçkilərin tarixi isə 2018-ci il aprelin 11-nə təyin olundu. Bu qərar ölkə gündəmini silkələdi, ictimai-siyasi proseslərə yeni nəfəs verdi.

**(davamı 4-cü səhifədə)**

(əvvəli 1-ci səhifədə)

Əslində bu seçki bir növ yeni strateji dövrün başlanğıcı, sabitliyin və inkişafın davamlılığını təmin etmək üçün atılmış həlledici addım idi. Azərbaycanın gələcək taleyində öz möhürünü qoyacaq bu proses dövlət idarəçiliyində çevikliyin, uzaqgörənliyin və siyasi iradənin təntənəsi kimi yadda qaldı.

2018-ci ildə keçirilən növbədənkənar prezident seçkiləri həm daxili, həm də xarici amillərin yaratdığı zərurətdən irəli gəlirdi. Vətən torpaqlarının uzun illər işğal









altında qalması ürəklərdə yanan alova çevrilmişdi, millətin ədalət axtarışı dözümlə davam edirdi. Tarixi ədaləti bərpa, torpaqlarımızı azad etmək üçün dövlət daha da gücləndirilməli, idarəetmə daha çevik və islahatyönümlü olmalı idi. Növbədənkənar seçkilər həm də xalqın hakimiyyətə olan inamının, güvəninin yenidən təcəssüm etməsi idi. Azərbaycan bu qərarla göstərdi ki, gücünün mənbəyi xalqdır, dayağı isə milli iradədir. Beləliklə, dövlətin strateji gələcəyinə verilən səs gələcəyə açılan qələbənin qapısı oldu.

Eyni zamanda dünya sürətlə dəyişirdi. Beynəlxalq münasibətlərdə gərginliklər artır, regionda və qlobal miqyasda yeni risklər və çağırışlar yaranırdı. Belə bir vaxtda Azərbaycan daim irəli baxmalı, çevik qərarlar verməli, dünya nizamında öz yerini daha da möhkəmləndirməli idi. Növbədənkənar prezident seçkiləri məhz bu məqsədlərə xidmət edirdi. Dövlətin sabitliyini qorumaq, idarəetmədə dinamizmi artırmaq və beynəlxalq arenada Azərbaycanın mövqeyini daha da gücləndirmək. Növbədənkənar prezident seçkiləri dünyaya Azərbaycanın sabit, qərarlı və gələcəyə doğru inamla addımlayan bir dövlət olduğu mesajını verdi.

Azərbaycan xalqı bir daha öz liderinə güvəndi və aprelin 11-də keçirilən prezident seçkilərində İlham Əliyevə göstərilən böyük dəstək - 86,02 faiz seçici səsi ilə əldə olunan qalibiyyət bu etimadın canlı sübutuna çevrildi. Bu seçkidən sonra ölkəmiz təkcə daxili arenada deyil, beynəlxalq miqyasda da yeni uğur mərhələsinə qədəm qoydu. İqtisadi müstəqillik, milli valyutamızın sabitliyi təmin olundu, dövlətin maliyyə dayaqları möhkəmləndi. Bu iqtisadi sabitlik isə siyasi müstəqilliyimizin bünövrəsini daha da bərkitdi. Bununla yanaşı, iqtisadiyyatımız 3,2 dəfə artmış və Azərbaycan dünyanın ən rəqabətqabiliyyətli ölkələri sırasında 35-ci yerdə qərarlaşmışdı. Bununla yanaşı, maaşlar və pensiyalar 8 dəfə artmışdır. 3 min 100-dən çox məktəb, 640-dan çox xəstəxana tikilib və təmir edilib. Yoxsulluq təxminən 50 faizdən 5,4 faizə düşdü. İşsizlik Azərbaycanda 5 faiz səviyyəsində idi. Sənaye istehsalı 2,6 dəfə, valyuta ehtiyatları 24 dəfə artaraq 44 milyard dollar oldu. Ölkəyə 230 milyard dollardan çox sərmayə qoyuldu. Azərbaycan dünyada baş verən böhranlardan ən az itkilərlə çıxa bildi. Ölkədə sahibkarlığın inkişafı sürətlə getdi, onlara 2 milyard manatdan çox güzəştli şərtlərlə kreditlər verildi. Yeni texnologiyaların tətbiqinə böyük diqqət yetirildi. Azərbaycan dünyanın məhdud sayda üzvü olan kosmik kluba daxil oldu, kosmik dövlətə çevrildi. Təhsilə, elmə xüsusi diqqət verildi. Qabaqcıl texnologiyaların ölkəmizə gətirilməsi və tətbiqi gələcək fəaliyyət üçün önəmli stimul oldu.

Prezident İlham Əliyev aprelin 11-də keçirilən seçkilərdə ona göstərilən böyük etimada görə xalqımıza müraciət edərək bildirmişdir ki, xalq-iqtidar birliyi, bizim məqsədyönlü siyasətimiz bu gün Azərbaycanı qüdrətli dövlətə çevirmişdir: "Azərbaycanın beynəlxalq nüfuzu artır, biz dünya miqyasında layiqli yer tuta bilmişik. Bu gün Azərbaycan dünyada çox böyük hörmətə, rəğbətə, dəstəyə malik olan bir ölkədir. Biz etibarlı tərəfdaşıq, bizimlə hesablaşırlar və biz beynəlxalq aləmdə öz mövqelərimizi böyük dərəcədə gücləndirə bilmişik".

Dünya tarixində iz qoyacaq hadisələr sırasında isə bir məqsəd öndə dayanırdı. Qarabağın işğaldan azad edilməsi. 30 il davam edən işğala son qoyuldu, xalqın ən böyük arzusu nəhayət ki, milli ordumuzun bölmələrinin qətiyyəti və Prezident İlham Əliyevin strateji uzaqgörənliyi sayəsində həllini tapdı.

Azərbaycanın beynəlxalq enerji xəritəsindəki rolu da getdikcə möhkəmləndi. "Cənub Qaz Dəhlizi" layihəsi gerçəkləşdi və ölkəmiz Avropanın enerji təhlükəsizliyində əsas aktorlardan birinə çevrildi. Bakı-Tbilisi-Qars dəmir yolu tam gücü ilə işə salındı. Şimal-Cənub, Qərb-Şərq nəqliyyat xətləri Azərbaycansız artıq mümkün deyil - çünki ölkəmiz bu dəhlizlərin əsas qovşağına çevrilib. Ölkə daxilində 30-dan çox elektrik stansiyası tikildi. Qazlaşdırma 95 faizə çatdırıldı. Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı tarixi nailiyyət idi. Açıq dənizlərə çıxışı olmayan Azərbaycan Respublikası Avrasiyanın vacib nəqliyyat-kommunikasiya mərkəzlərindən birinə çevrildi. Beynəlxalq tədbirlərin keçirilməsi, Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, Formula 1 yarışları, siyasi və humanitar tədbirlər Azərbaycanı dünyaya təqdim etdi. Pandemiya dövründə isə Azərbaycan nəinki özünü qorumağı bacardı, eyni zamanda qlobal miqyasda təşəbbüslərlə çıxış etdi. Prezident İlham Əliyevin təşəbbüsü ilə BMT səviyyəsində xüsusi sessiyanın keçirilməsi bu mövzuda Azərbaycanın beynəlxalq liderlik qabiliyyətini bir daha nümayiş etdirdi. Azərbaycan həmçinin Qoşulmama Hərəkatı və Türk Dövlətləri Təşkilatı kimi qlobal birliklərdə fəallığı ilə seçildi. Sözümüz, mövqeyimiz, haqq səsimiz bu təşkilatlar vasitəsilə dünyanın hər yerinə çatdırıldı.

Əlbəttə, bu uğurların hər birinin arxasında dayanan ideoloji dayaqlar var. Prezident İlham Əliyevin hücum diplomatiyası təkcə xarici siyasət xətti deyil, həm də beynəlxalq hüquqa əsaslanan bir ideoloji sistem olaraq Qarabağ həqiqətlərinin dünyaya çatdırılmasında müstəsna rol oynadı. Bu yanaşma sayəsində beynəlxalq təşkilatlar nəhayət ki, Ermənistanın hərbi təcavüzünü rəsmi şəkildə pisləyən sənədlər qəbul etdilər.

Xüsusi vurğulanmalıdır ki, 2018-ci ilin yazı milli ruhun, ordunun qüdrətinin özünü göstərdiyi bir dönəmlə yadda qaldı. Seçkilərdən cəmi bir ay sonra - mayın 20-dən 27-dək - Naxçıvanda tarix yazıldı. Şərur rayonunun Günnüt kəndi istiqamətində həyata keçirilən uğurlu hərbi əməliyyatla Azərbaycan Ordusu düşmənin illərlə möhkəmləndiyi mövqeləri darmadağın etdi. Bu əməliyyat sadəcə taktiki uğur deyildi. Bu, ordumuzun döyüş əzminin, xalqımızın torpaq sevgisinin, dövlətimizin iradəsinin təcəssümü idi. Günnüt kəndi, Ağbulaq yüksəkliyi, Qızılqaya və Qaraqaya dağları işğaldan azad edildi. Dərələyəz mahalının Arpa kəndi Azərbaycan Ordusunun nəzarəti altına keçdi. Ümumilikdə 11 min hektarlıq ərazi düşməndən geri alındı. Bu qələbə ilə Azərbaycan Silahlı Qüvvələri strateji əhəmiyyət daşıyan İrəvan - Keşişkənd - Gorus - Laçın - Xankəndi avtomobil yolunu nəzarət altına aldı. Günnütdə açılan qələbə səhifəsi əslində 2020-ci ilin Zəfər dastanına gedən yolun başlanğıcı idi. Nəhayət, 2020-ci il sentyabrın 27-si... Tariximizin ən şərəfli səhifələrindən biri yazıldı - 44 gün boyunca Azərbaycan əsgəri dağları aşdı, səngərləri yardı, işğal altındakı torpaqları addım-addım geri aldı. Ermənistan ordusu darmadağın edildi, torpaqlarımız azad olundu, ədalət bərpa edildi.

2018-ci il 11 apreldə keçirilən növbədənkənar prezident seçkiləri Azərbaycan xalqının siyasi yetkinliyinin, dövlətə və liderinə olan inamının parlaq təzahürü oldu. Bu seçkinin nəticələri bir daha sübut etdi ki, xalq öz gələcəyini hansı yolun üzərində qurmaq istədiyini dəqiq bilir. Vətəndaşlar öz səsini illərlə sınaqdan çıxmış, sabitlik və inkişaf gətirən siyasi kursa verdilər. Bu, ulu öndər Heydər Əliyevin təməlini qoyduğu strateji xəttin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinə verilən güclü ictimai dəstək idi. Xalq öz seçimi ilə təhlükəsizlik, iqtisadi inkişaf, güclü ordu və vətəndaş rifahının realizəsinə səs verdi. Bu reallığın müəllifi Prezident İlham Əliyevdir. Azərbaycan xalqı dəyişkən dünyada sabit bir gələcək qurur, sözlə deyil, əməllə sübut olunmuş liderə arxalanır.

**Nurlan ABDALOV,**
**"Respublika".**

Respublika .- 2025.- 11 aprel (№ 70).- S.1;4.